# QARABAĞIN PALEOLİT DÜŞƏRGƏLƏRİNİN ARXEOLOJİ MƏDƏNİYYƏTLƏRİ

## AŞEL MSSDSSNİYYSSTİ

Çoxtəbəqəli Azıx mağara düşərgəsinin VI təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı qədim aşel dövrünə aid maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Aparılan arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, Azıx qədim insan düşərgəsində Quruçay mədəniyyəti dövrü uzun müddətdən sonra qədim aşel mədəniyyəti ilə əvəz olunmuşdur (Hüseynov, 1985, Cəfərov, 1990, 1994, 2008).

Bəşər tarixində Aşel mədəniyyəti ilk dəfə Fransanın Sent-Aşel düşərgəsində müəyyən olunmuşdur. Ona görə də ilk dəfə tapıldığı yerin adı ilə Aşel mədəniyyəti adlandırılmışdır. Aparılan arxeoloji tədqiqatlar zamanı Aşel mədəniyyətinin bəşər tarixində geniş ərazilərə yayılmasına dair zəngin maddi mədəniyyət nümunələri tapılmışdır. Hazırda qədim, orta və son aşel mədəniyyətlərinə aid maddi mədəniyyət nümunələri Afrikada, Avropada, Asiya və Cənubi Qafqaz ölkələri ərazilərində qeydə alınıb tədqiq olunmuşdur (Lübin, 1984, Qriqoryev, 1987, Karobkov, 1978, Lübin, 1998, 2006, Cəfərov, 2004, 2008).

Aşel mədəniyyəti öz inkişafında bir neçə mərhələdən keçmişdir. Mədəniyyətin ilk mərhələlərində əmək alətləri bəsit formada, qalın qəlpələr üzərində hazırlanmış qaşov tipli əmək alətlərindən, əl çapacaqlarından və çapma alətlərdən ibarət olmuşdur.

Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqat işləri nəticəsində Aşel mədəniyyətinə aid əmək alətləri Azıx mağarasının VI və V təbəqələrində, Qazax rayonunun Qayalı, Acıdərə, Əlibayramlı və Şişquzey açıq paleolit düşərgələrində tapılmışdır. Eyni zamanda son illərdə aparılmış arxeoloji kəşfiyyat işləri nəticəsində respublikamızın Lerik, Kəlbəcər və Naxçıvan Muxtar Respublikası ərazilərindən də Aşel mədəniyyətinə aid tək-tək əmək alətləri tapılmışdır (Cəfərov, 1990, 2004, 2008, 2014).

Maraqlıdır ki, Azərbaycan və o cümlədən bütün Qafqaz və Yaxın Şərq ərazisində ancaq Azıx mağara düşərgəsinin VI və V təbəqələrindən Aşel mədəniyyətinə aid zəngin maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Azıx mağara düşərgəsinin VI təbəqəsində aparılan arxeoloji tədqiqatlar zamanı ilk dəfə olaraq mükəmməl işlənmiş əl çapacaqları tapılmışdır. Məhz əl çapacaqlarının meydana çıxması ilə əlaqədar olaraq qədim insanların həyatında ovçuluq təsərrüfatı daha da inkişaf etməyə başlamışdır (şəkil 57 №3; 61).

Azıx mağara düşərgəsinin altıncı təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı 2 mindən artıq daş məmulatı aşkar olunmuşdur. Altıncı təbəqədən tapılmış daş məmulatı içərisində 526 ədəd əmək alətləri qeydə alınmışdır. Daş məmulatının qalan hissəsini isə istehsal tullantıları, nukleuslar və tibi çay daşları təşkil edir. Qədim aşel mədəniyyətinə aid altıncı təbəqədən tapılmış əmək alətləri içərisində əsas yeri qaşov tipli alətlər və çapacaqlar təşkil edir. Azıx düşərgəsinin altıncı təbəqəsindən əmək alətləri ilə birlikdə istehsal tullantıları və nukleusların aşkar olunması qədim aşel dövründə düşərgədə qədim insanların əmək alətləri hazırladıqlarını göstərir. Məhz Azıx düşərgəsinin altıncı təbəqəsindən aşkar olunmuş əmək alətlərinin texniki və tipoloji xüsusiyyətlərinə əsasən onların qədim Aşel dövründə hazırlandıqlarını söyləmək olar.

Azıx düşərgəsinin VI təbəqəsindən aşkar olunmuş daş məmulatını aşağıdakı qruplara ayırmaq olar:

1. çay daşları (37 ədəd)
2. nüvələr (9 ədəd)
3. nüvə qırıqları (17 ədəd)
4. çopperlər (16 ədəd)
5. çoppinqlər (5 ədəd)
6. əl çapacaqları (8 ədəd)
7. diskşəkilli alətlər (3 ədəd)
8. itiuclular (7 ədəd)
9. limaslar (6 ədəd)
10. bir işlək ağızlı qaşovlar (48 ədəd)
11. belli-təbii qabıqlı qaşovlar (32 ədəd)
12. bir işlək ağızlı qabarıq qaşovlar (33 ədəd)
13. bir işlək ağızlı batıq qaşovlar (16 ədəd)
14. iki düz ağızlı qaşovlar (16 ədəd)
15. iki işlək ağızlı qabarıq qaşovlar (4 ədəd)
16. iki işlək ağızlı batıq qaşovlar (3 ədəd)
17. iki işlək ağızlı qabarıq-batıq qaşovlar (6 ədəd)
18. konvergent qaşovlar (13 ədəd)
19. künclü qaşovlar (20 ədəd)
20. enli qaşovlar (21 ədəd)
21. əks ağızlı qaşovlar (4 ədəd)
22. Tağlar tipli qaşovlar (2 ədəd)
23. qaşovcuqlar (13 ədəd)
24. bizlər (4 ədəd)
25. bıçaq tipli alətlər (2 ədəd)
26. gəzli alətlər (15 ədəd)
27. dişli alətlər (18 ədəd)
28. fraqment şəkilli alətlər (82 ədəd)

Maraqlıdır ki, fraqment şəkilli alətlər hələlik (aşel dövründə) ancaq Azıx düşərgəsinin qədim aşel dövrünə aid təbəqədən aşkar olunmuşdur.

Çay daşları (37 ədəd). Onların bəzilərinin üzərində əzilmə və döyülmədən əmələ gələn qopuq yerləri vardır. Maraqlıdır ki, çay daşlarının əksəriyyəti yastı formaya malikdirlər. Çay daşlarının hamısı Quruçaydan toplanıb, mağaraya ibtidai insanlar tərəfindən gətirilmişdir.

Nüvələr (9 ədəd). Onların 4 ədədi çaxmaq, 3 ədədi slanes daşından, 2 ədədi isə bazalt daşından hazırlanmışdır. Nüvələr tipoloji cəhətdən bir zərbə səthlilər və diskşəkillilərdən ibarətdir (şəkil 59).

Azıx mağara düşərgəsinin VI təbəqəsindən 17 ədəd nüvə qırıqları da qeydə alınmışdır.

Kobud çapma alətlər (16 ədəd). Azıx düşərgəsinin VI təbəqəsindən aşkar olunmuş kobud çapma alətləri özünün hazırlanma texnikası və tipologiyasına görə VII-X təbəqələrdən tapılan kobud çapma alətlərdən fərqlənirlər. VI təbəqənin kobud çapma alətləri əsasən çay daşlarından hazırlanmışdır. Təsvir olunan alətlərin yaranma tarixi əl çapacaqlarının yaranma tarixindən olduqca qədimdir. Aparılan arxeoloji tədqiqatlardan müəyyən olunmuşdur ki, ilk kobud çapma alətləri Olduvay mədəniyyətindən, Azərbaycan ərazisində isə Quruçay mədəniyyəti dövründən yaranmağa başlamışdır (Hüseynov, 1985, Cəfərov, 1994, 2004, 2008) (şəkil 57, 58).

Azıx mağarasının VI təbəqəsindən aşkar olunmuş kobud çapma alətlərini ölçülərinə görə 3 qrupa ayırmaq olar: iri ölçülü (4 ədəd), orta ölçülü (8 ədəd) və kiçik ölçülülər ( 4 ədəd). Təsvir olunan kobud çapma alətlərin nümunələri şəkil 57-də göstərilmişdir.

Çoppinqlər (5 ədəd). Onların hamısı çay daşları üzərində hazırlanmışdır. Alətlərin işlək ağızlarında döyülmə, əzilmə əlamətləri aydın görünür. Bu da onların iş prosesində meydana çıxmasını göstərir. Təsvir olunan alətlərin nümunələri şəkil 58 № 2-də göstərilmişdir.

Əl çapacaqları (8 ədəd). Əl çapacaqları öz hazırlanma texnikasına görə başqa alətlərdən fərqlənirlər. Azıx düşərgəsinin VI təbəqəsindən aşkar olunmuş əl çapacaqlarının hamısı tipik və klassik şəkildə hazırlanmışdır. İlk vaxtlar ibtidai insanlar əl çapacaqları hazırlamaq üçün bir neçə saat, sonralar isə daha az vaxt sərf etməli oldular. Əl çapacaqlarının hazırlanması və ondan istifadə olunması qədim insanların həyatında mühüm rol oynadı. Əl çapacaqları vasitəsilə qədim insanlar ovçuluq sahəsində mühüm nailiyyətlər əldə etdilər. Nəticədə ibtidai insanların həyatında ovçuluq əsas yer tutmağa başladı. Məhz əl çapacaqları vasitəsilə ibtidai adamlar ovladıqları heyvanları ayrı-ayrı hissələrə parçalayır, ətini doğrayırdılar.

Azıx mağarasından aşkar olunmuş qədim aşel dövrünə aid əl çapacaqlarını tipoloji cəhətdən bir neçə qrupa ayırmaq olar. Onların arasında yarpaq, ürəkşəkilli və oval formalı əl çapacaqları çoxluq təşkil edir. Təsvir olunan əl çapacaqlarının nümunələri şəkil 61-də göstərilmişdir.

Azıx mağarasının VI təbəqəsinin daş məmulatı içərisində kobud çapma alətlərindən və əl çapacaqlarından başqa ikinci qrup əmək alətlərini qaşov tipli alətlər təşkil edirlər. Qaşov tipli alətlər də öz növbəsində ayrı-ayrı tiplərə bölünürlər. Maraqlıdır ki, bütün Qafqaz ərazisində qədim aşel dövrünə aid zəngin daş məmulatı hələlik ancaq Azıx düşərgəsinin VI təbəqəsində müəyyən olunmuşdur. Ona görə də qədim aşel dövrünün əmək alətlərinin hazırlanma texnikası və tipologiyasının ayrı-ayrı xüsusiyyətlərini tədqiq etmək olur (Hüseynov, 1975, 1985).

Azıx düşərgəsinin qədim aşel təbəqəsində aşkar olunmuş fauna qalıqları əsasında ibtidai sakinlərin əsasən ovçuluqla məşğul olmalarını öyrənmək olur. Eyni zamanda müəyyən olunmuşdur ki, aşel adamlarının ovçuluq fəaliyyətində əsas yeri mağara ayıları və nəhəng marallar tuturdular. Bu həmçinin qədim aşel dövründə Quruçay dərəsinin meşəliklərində mağara ayıları və nəhəng maralların mövcud olduğunu göstərir.

Azıx mağara düşərgəsinin V təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı orta aşel mədəniyyətinə aid maddi mədəniyyət nümunələri tapılmışdır. Bu Azıxda qədim aşel dövrünün sonralar orta aşel mədəniyyəti ilə əvəz olunduğunu göstərir. Arxeoloji tədqiqatlar zamanı məlum olmuşdur ki, Azıx mağara düşərgəsində orta aşel mədəniyyəti 400 min il bundan qabaq başlamış və 200 min il əvvəl sona çatmışdır.

Azıx mağara düşərgəsinin V təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı tapılmış daş alətlərin əsasını kobud çapma alətləri və əl çapacaqları təşkil edir. V təbəqənin daş məmulatı içərisində müxtəlif klekton tipli əmək alətləri və kobud hazırlanmış itiuclu alətlər də qeydə alınmışdır. Azıx düşərgəsinin orta aşel təbəqəsindən aşkar olunmuş daş məmulatının texniki-tipoloji xüsusiyyətlərinə görə özündən aşağıda yerləşən əmək alətləri qədim aşel dövrü daş məmulatının bəzi oxşar xüsusiyyətlərini özündə əks etdirir (şəkil 60, 67-73).

Maraqlıdır ki, V təbəqədən ancaq ovçuluq üçün yararlı olan əmək alətləri tapılmışdır. Azıx düşərgəsinin orta aşel mədəniyyətinə aid olan təbəqədən aşkar olan əmək alətlərinin sayı 300-dən bir qədər artıqdır. Orta aşel təbəqəsinin daş məmulatı içərisində istehsal tullantıları demək olar ki, yoxdur. Bu göstərir ki, düşərgə sakinləri orta aşel dövründə əmək alətlərini Azıx düşərgəsindən kənarda hazırlamış və sonradan buraya gətirmişlər. Aparılan elmi tədqiqat zamanı müəyyən olunmuşdur ki, orta aşel mədəniyyəti dövründə qədim insanlar Azıx düşərgəsində daimi yaşamış və əsas məşğuliyyətləri ovçuluqdan ibarət olmuşdur. Ovçuluq qədim insanları nəinki yeməklə təmin edir, eyni zamanda adamlara geyim və yaşayış yerləri hazırlamağa da imkan verirdi. Azıx mağara düşərgəsindən aşkar olunmuş fauna qalıqları göstərir ki, orta aşel dövründə ovçuluq özünün ən yüksək inkişaf zirvəsinə çatmışdır. Əgər qədim aşel dövründə 11 növ heyvan ovlanmışdırsa, orta aşel dövründə isə Azıx sakinləri 45 növ heyvan və quş ovlamışlar (Hüseynov, 1985).

Azıx düşərgəsinin V təbəqəsində aparılan arxeoloji tədqiqatlar zamanı daş məmulatı və fauna qalıqları ilə yanaşı qədim insana məxsus çənə qırığının tapılması mühüm elmi əhəmiyyət kəsb edir. Çünki bu vaxta qədər nəinki Azərbaycan, eyni zamanda keçmiş SSRİ ərazisində orta aşel dövrünə aid paleoantropoloji tapıntı qeydə alınmamışdır. 1968-ci ilin yay fəslində Azıx düşərgəsinin V təbəqəsində aparılan arxeoloji tədqiqatlar zamanı bir neçə daş alət və fauna qalıqları ilə birlikdə ibtidai insan çənəsinin bir hissəsi tapılmışdır. Professor D.Hacıyev tapılmış çənə üzərində uzun müddət elmi tədqiqat işləri aparmışdır. Azıx düşərgəsinin V təbəqəsindən tapılmış çənənin iri olması açıq nəzərə çarpır və gövdəsi nisbətən qalındır. Bu baxımdan Azıxdan tapılmış çənə avstrolopitekdən fərqlənir və müəyyən əlamətlərinə görə arxantroplar arasında özünə xüsusi yer tutur. Azıx düşərgəsinin orta aşel dövrünə aid təbəqəsindən tapılmış çənəyə şərti olaraq Azıxantrop, yəni Azıx adamı adı verilmişdir (Hüseynov, Hacıyev, 1970) (şəkil 18, 24).

Azıx qədim insan düşərgəsinin V təbəqəsindən tapılmış qədim insan çənəsi quruluşundakı spesifik cəhətlərə əsasən, bir tərəfdən pitikantroplara, xüsusilə Mauer adamının çənəsinə, digər tərəfdən də bir çox əlamətlərinə görə Fransanın Kondel-Araqo düşərgəsinin Aşel təbəqəsindən tapılmış pre-neandertallara daha yaxındır. Maraqlıdır ki, Fransanın Kondel-Araqo mağarasında aparılan arxeoloji qazıntılar zamanı çoxlu paleoantropoloji tapıntılar aşkar olunmuşdur. Paleoantropoloji tapıntılar içərisində əsas yeri qədim insan çənələri və kəllə qapaqları tutur. Məhz ona görə də Azıxdan qeydə alınmış qədim insan çənəsi Araqonun antropoloji tapıntıları ilə müqayisə olunur (Cəfərov, 2004, 2008).

Azıxdan aşkar olunmuş çənə üzərində prof. D.Hacıyev uzun müddət elmi tədqiqat aparmış və müəyyən etmişdir ki, Azıxda aşkar olunmuş çənə ölkəmizin ərazisində ən qədim insan çənəsi olub, 30-35 yaşlı qadına məxsus olaraq və 400 min il əvvəl Azərbaycan ərazisində yaşamışdır. Hələlik keçmiş SSRİ ərazisində və Yaxın Şərqdə olan insan məskənlərindən Azıxda tapılan və bu cür qədimliyə malik paleoantropoloji tapıntı qeydə alınmamışdır. Bu aşel mədəniyyətinə aid ən qədim insan çənəsidir (Hacıyev, Mariya Antuanetta, 2000).

Beynəlxalq İNTAS-2000 proqramı çərçivəsində aparılan kompleks tədqiqatlar zamanı da Azıxdan tapılmış çənənin 30-35 yaşlı qadına məxsus olması müəyyən olunmuşdur. Lakin 2015-ci ilədək çap olunmuş bütün elmi ədəbiyyatlarda Azıxdan aşkar olunmuş qədim insan çənəsinin 18-22 yaşlı qadına məxsus olması qeyd olunmuşdur (Hacıyev, Hüseynov, 1970, Hüseynov, 1975, 1985, Cəfərov, 2004, 2008 və s.). Son elmi araşdırmalar isə bunun yanlış olmasını elmi əsaslarla sübuta yetirmişdir.

*(Davamı var)*



*Əsədulla Cəfərov, AMEA Arxeologiya və Etnoqrafiya institutunun şöbə rəhbəri, t.e.d., professor.*
*01 fevral 2019-cu il.*
*Mob: (050) 358-91-55.*
asadulla.jafarov@gmail.com